## *Rusiya Prezidentinin köməkçisi:*

# "Vladimir Putin ilk Avropa Oyunlarının təşkilatçılığını yüksək qiymətləndirib"




Bakıda keçirilən ilk Avropa Oyunlarında təşkilatçılığın səviyyəsi Olimpiya standartlarına tam uyğun idi. Bu sözləri TASS agentliyində I Avropa Oyunlarının yekunları ilə bağlı keçirilən mətbuat konfransında Rusiya Olimpiya Komitəsinin prezidenti Aleksandr Jukov deyib.

A.Jukov Avropa Oyunlarında ümumi komanda hesabında qələbə qazanan Rusiya yığmasının Rio-de-Janeyroda keçiriləcək Olimpiya Oyunlarında da uğurla iştirak edəcəyinə ümidvar olduğunu bildirib.

Mətbuat konfransında çıxış edən Rusiya Prezidentinin köməkçisi, Rusiya Olimpiya Komitəsinin vitse-prezidenti İqor Levitin Azərbaycanın ilk Avropa Oyunlarını yüksək səviyyədə təşkil etməsindən danışıb. Hələ Oyunlar başlamazdan xeyli əvvəl hazırlığın gedişi ilə tanış olmaq üçün Bakıya getdiyini qeyd edən İ.Levitin bildirib ki, Rusiya tərəfi yüksək peşəkarlıqla çalışan Təşkilat Komitəsi ilə daim qarşılıqlı fəaliyyətdə olub. İ.Levitin deyib: "Avropa Oyunları Olimpiya Oyunları səviyyəsində keçdi. Açılış və bağlanış mərasimləri də yüksək səviyyədə təşkil olunmuşdu". O vurğulayıb ki, Rusiya Prezidenti Vladimir Putin Oyunların təşkilatçılığını yüksək qiymətləndirib.

I Avropa Oyunlarında Rusiya nümayəndə heyətinin rəhbəri olmuş İqor Kazikov isə Azərbaycan xalqının qonaqpərvərliyindən danışıb. Bildirib ki, sadə insanların da Rusiya komandasına münasibətini sözlə ifadə etmək belə çətindir. Azərbaycan tamaşaçıları rusiyalı idmançılara həvəslə azarkeşlik edirdilər.

***Fəridə ABDULLAYEVA,***
***AZƏRTAC-ın xüsusi müxbiri***

*Moskva*